# ƏDLİYYƏ

www.justice.gov.az

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin orqanı

881 ÇAĞRI MƏRKƏZİ

№ 09 (258) sentyabr 2025


## Ədliyyə Nazirliyinin kollektivi Zəfər parkını ziyarət edib




**Ədliyyə Nazirliyinin rəhbərliyi və kollektivi 27 Sentyabr - Azərbaycan Respublikasında Anım Günü ilə əlaqədar Zəfər parkını ziyarət edib.**

Ölkəmizin ərazi bütövlüyünün bərpa edilməsi və suverenliyin bərqərar olunmasında canlarını fəda etmiş şəhidlərimizin xatirəsi yad edilib, parkdakı Zəfər abidəsinin önünə gül dəstələri düzülüb.

Qeyd edək ki, cənab Prezident İlham Əliyevin 2020-ci il 2 dekabr tarixli Sərəncamı ilə təsis edilmiş Anım Günü Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, ölkəmizin ərazi bütövlüyü yolunda canlarından keçmiş əsgər və zabitlərimizə, bütün şəhidlərimizə dərin ehtiramın ifadəsidir.





## 27 Sentyabr - Anım Günü ilə əlaqədar Ədliyyə Nazirliyində tədbir keçirilib

**27 Sentyabr - Azərbaycan Respublikasında Anım Günü ilə əlaqədar Ədliyyə Nazirliyində tədbir keçirilib.**

Tədbirdə ədliyyə nazirinin müavini Abiddin Hüseynov, Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri, millət vəkili Əli Hüseynli, Nazirliyin şəhid əməkdaşlarının ailə üzvləri və Nazirliyin kollektivi iştirak ediblər.

Tədbirdən öncə şəhid ədliyyə qulluqçusu Ruhin Xəlilovun Nazirliyin inzibati binasındakı büstü ziyarət edilib, xatirəsi yad olunub.

Daha sonra tədbir iştirakçıları şəhidlərin əziz xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

Çıxış edən nazir müavini Abiddin Hüseynov ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçmiş bütün şəhidlərin xatirəsinin qəlblərdə daim əziz tutulduğunu vurğulayıb. Nazir müavini dövlət başçısının rəhbərliyi ilə əldə olunan tarixi Zəfərin xalqımızın gücünün və birliyinin rəmzinə çevrildiyini qeyd edib, şəhid ailələrinə və qazilərə göstərilən diqqət və qayğının prioritet istiqamətlərdən olduğunu diqqətə çatdırıb.

Millət vəkili Əli Hüseynli öz növbəsində 44 günlük Vətən müharibəsində Azərbaycan xalqının milli həmrəylik və böyük qətiyyət nümayiş etdirərək düşmən üzərində parlaq qələbə qazandığını, bu mübarizədə şəhidlik zirvəsinə ucalan qəhrəmanların gələcək nəsillər üçün örnək olduğunu vurğulayıb. Millət vəkili, həmçinin bu il qeyd olunan "Konstitusiya və Suverenlik İli" haqqında danışıb, ən yaxın tariximizin bu yola aparan vacib mərhələləri haqqında kollektivə məlumat verib.









## Vətən müharibəsinin başlamasından 5 il ötür

**Azərbaycan Respublikasında hər il 27 sentyabr - Anım Günü kimi qeyd edilir.**

Azərbaycan Bayrağını işğaldan azad edilən torpaqlarımızda dalğalandırmış, Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını fəda etmiş əsgər və zabitlərimizin əziz xatirəsinə dərin ehtiram əlaməti olaraq Ədliyyə Nazirliyinin Penitensiar xidmətinin baş idarəsində tədbir keçirilib.

Mərasimdə şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.



Çıxış edən ədliyyə nazirinin müavini - Penitensiar xidmətin rəisi Mirsaleh Seyidov Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi və yenilməz siyasi iradəsi, xalq, ordu və dövlət birliyi nəticəsində qazanılan Zəfərin həm hərbi, həm də diplomatik müstəvidə ən mühüm qələbə kimi tarixə yazıldığını, 30 ilə yaxın işğal altında qalmış torpaqlarımızın azad edilməsi ilə tarixi ədalətin bərpa olunduğunu qeyd edib. 44 günlük Vətən müharibəsinin davamı olaraq lokal xarakterli antiterror tədbirləri nəticəsində ölkə ərazisində suveren hüquqlarımızın tam bərpa olunduğu diqqətə çatdırılıb. Qeyd olunub ki, bu şanlı tarixin memarları olan şəhidlərimizin xatirəsi heç vaxt unudulmayacaq.

Anım mərasimində Penitensiar xidmətdə işləyən şəhid ailələri üzvləri və müharibə veteranları iştirak ediblər.

Sonda Vətən müharibəsinə həsr olunmuş film izlənilib.

# Nazir Fərid Əhmədov Naxçıvan şəhərində vətəndaşları qəbul edib





**Ədliyyə naziri Fərid Əhmədov 19 sentyabr tarixində Naxçıvan şəhərində vətəndaşları qəbul edib.**

Qəbuldan əvvəl nazir Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edib və önünə gül dəstəsi qoyub.

Qəbulda Naxçıvan şəhəri və Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz, Şərur rayonlarından ümumilikdə 56 vətəndaşın ədliyyə fəaliyyəti ilə bağlı müraciətləri dinlənilib. Vətəndaşların müraciətlərində qaldırılan məsələlərin bir qismi yerində müsbət həllini tapıb. Əlavə araşdırma tələb edən digər müraciətlərə isə mövcud qanunvericiliyin tələblərinə uyğun şəkildə baxılması ilə bağlı nazirliyin aidiyyəti struktur bölmələrinin rəhbər şəxslərinə müvafiq tapşırıqlar verilib.

Qeyd edək ki, qəbul mərkəzi icra hakimiyyəti orqanlarının və digər idarəetmə qurumlarının rəhbərləri tərəfindən şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə əsasən həyata keçirilib.

# Ədliyyə nazirinin müavini Abiddin Hüseynov bölgələrdə yaşayan vətəndaşların müraciətlərini dinləyib




**Ədliyyə Nazirliyi vətəndaş məmnunluğunun artırılması, ədliyyə orqanlarına əlçatanlığın təmin olunması, regionlarda yaşayan vətəndaşların müraciətlərinə operativ və yerində baxılması məqsədilə mütəmadi olaraq videoqəbullar təşkil edir.**

Sentyabrın 18-də Nazirliyin Sənəd dövriyyəsi və vətəndaşların müraciətləri ilə iş idarəsi və regional ədliyyə idarələrinin təşkilatçılığı ilə ədliyyə nazirinin müavini Abiddin Hüseynov tərəfindən Xaçmaz, Gəncə, Göyçay və Lənkəran regional ədliyyə idarələri ilə həmin qurumların yurisdiksiyalarına daxil olan rayonların sakinləri üçün videokonfrans vasitəsilə qəbul keçirilib.

Virtual qəbul məntəqələri vasitəsilə keçirilən videoqəbulda Notariat, qeydiyyat və reyestr baş idarəsi və İnsan resursları idarəsinin fəaliyyət istiqamətləri ilə bağlı vətəndaş müraciətləri dinlənilib, vətəndaşlara qanunvericiliyin tələbləri ətraflı izah olunub və qəbul zamanı təqdim edilmiş müraciətlər zəruri tədbirlərin görülməsi üçün nəzarətə götürülüb.

Qəbula qatılan vətəndaşlar belə görüşlərin region sakinləri üçün əhəmiyyətini vurğulayıb, operativ həll mexanizmlərindən məmnunluqlarını ifadə ediblər.

Regionlarda yaşayan vətəndaşlar videoqəbullarda iştirak etmək üçün qebul@justice.gov.az elektron poçt ünvanına və ya Nazirliyin regional ədliyyə idarələrinə müraciət etməklə qəbula yazıla bilərlər.

# Ədliyyə Nazirliyi tərəfindən bölgələrdə yaşayan vətəndaşlar üçün videoqəbullar keçirilir




**Vətəndaş məmnunluğunun artırılması, ədliyyə orqanlarına əlçatanlığın təmin olunması, regionlarda yaşayan vətəndaşların müraciətlərinə operativ və yerində baxılması məqsədilə Ədliyyə Nazirliyi tərəfindən mütəmadi olaraq videoqəbullar təşkil edilir.**

Sentyabr ayı ərzində Nazirliyin Sənəd dövriyyəsi və vətəndaşların müraciətləri ilə iş idarəsi və regional ədliyyə idarələrinin təşkilatçılığı ilə Bələdiyyələrlə iş baş idarəsi, Məhkəmə Ekspertizası Mərkəzi, Tibb baş idarəsi, İcra xidməti və Notariat, qeydiyyat və reyestr baş idarəsinin rəhbərliyi tərəfindən Şəki, Şirvan, İmişli, Xaçmaz, Göyçay, Lənkəran, Bərdə, Şəmkir və Gəncə regional ədliyyə idarələri ilə birlikdə videokonfrans vasitəsilə həmin qurumların yurisdiksiyalarına daxil olan rayonların sakinləri üçün videoqəbullar keçirilib.

Videoqəbullarda Nazirliyin fəaliyyət istiqamətləri üzrə 59 vətəndaşın müraciəti dinlənilib, qaldırılan məsələlərin bir qismi yerindəcə həll edilib, həmçinin vətəndaşlara qanunvericiliyin tələbləri ətraflı izah olunub və qəbul zamanı təqdim edilmiş müraciətlər zəruri tədbirlərin görülməsi üçün nəzarətə götürülüb.

Regionlarda yaşayan vətəndaşlar videoqəbullarda iştirak etmək üçün qebul@justice.gov.az elektron poçt ünvanına və ya Nazirliyin regional ədliyyə idarələrinə müraciət etməklə qəbula yazıla bilərlər.

# Ədliyyə Nazirliyinin "881" Çağrı Mərkəzi avqust ayında 12 mindən çox vətəndaşın müraciətini cavablandırıb

**Ədliyyə Nazirliyinin "881" Çağrı Mərkəzi müraciətlərin obyektiv araşdırılması və cavablandırılması, fəaliyyətin təkmilləşdirilməsi üçün təhlillərin aparılması və vətəndaş məmnunluğunun artırılmasını təmin edir.**




Çağrı Mərkəzi iş vaxtı ərzində fasiləsiz olaraq Nazirliyin bütün fəaliyyət sahələri üzrə vətəndaşların müraciətlərinin cavablandırılmasını və yönləndirilməsini həyata keçirir.

Avqust ayı ərzində "881" Çağrı Mərkəzinə məhkəmə qərarlarının icrası, məhkəmə ekspertizası, bələdiyyələrin fəaliyyəti, notariat, qeydiyyat, penitensiar, probasiya və digər aidiyyəti sahələr üzrə daxil olan 12.599 müraciətdən 12.078-i cavablandırılıb. Vətəndaşlara göstərilən xidmət səviyyəsi (daxil olan zənglərin 30 saniyə ərzində cavablandırılmaya qəbul faizi) 87 faiz təşkil edib, habelə vətəndaşların müraciətlərinə orta hesabla 1 dəqiqə 42 saniyə ərzində cavab verilib.

Bundan başqa, Çağrı Mərkəzində müraciətlərin birbaşa cavablandırılması ilə yanaşı ən son innovativ həlləri əks etdirən proqram təminatı vasitəsilə interaktiv səsli menyu, "geriyə zəng" və "zəng sifarişi" xidmətlərinin tətbiqi vətəndaşların Nazirliyə əlçatanlığını asanlaşdırıb. Bu xidmətlər vasitəsilə ay ərzində 521 itirilmiş zəngə əks əlaqə yaradılıb və qeyri-iş günlərində müraciət edən 369 vətəndaşın suallarının cavablandırılması təmin edilib.

Ədliyyə Nazirliyi Çağrı Mərkəzinin inkişaf etdirilməsi, qanunvericiliyin tələblərinə və müasir standartlara uyğun təşkili, vətəndaş məmnunluğunun, operativliyin və göstərilən xidmətin keyfiyyətinin artırılması üçün davamlı olaraq tədbirlər həyata keçirir.

# Sosial Tədqiqatlar Mərkəzinin rəhbər heyəti Ədliyyə Nazirliyinin yenilənmiş Çağrı Mərkəzində olub

**Sosial Tədqiqatlar Mərkəzinin (STM) nümayəndə heyəti Ədliyyə Nazirliyinin Çağrı Mərkəzində olub.**

STM-in İdarə Heyətinin sədri, millət vəkili Zahid Oruc və Mərkəzin sektor müdirləri Aygün Yusibova, İlyas Hüseynov və Tural İsmayılov dövlət qurumlarının kommunikasiya xətlərinin fəaliyyəti üzrə aparılan mütəmadi monitorinqlər çərçivəsində Ədliyyə Nazirliyinin yenilənmiş Çağrı Mərkəzi ilə tanış olublar.





Tədbirdə iştirak edən nazir müavini Toğrul Hüseynov bildirib ki, vətəndaş müraciətlərinə operativ baxılması və məlumatların əlçatanlığının artırılması məqsədilə Nazirliyin ”881” Çağrı Mərkəzi müasir tələblərə uyğun formatda fəaliyyət göstərir. Yenilənmiş mərkəz ən son texnoloji avadanlıqlarla təchiz olunaraq müraciətlərin obyektiv araşdırılması, cavablandırılması və vətəndaş məmnuniyyətinin yüksəldilməsini təmin edir. O, qeyd edib ki, avqust ayında ”881” Çağrı Mərkəzinə daxil olan 12.599 müraciətdən 12.078-i cavablandırılıb. Zənglərin 87 faizi 30 saniyə ərzində cavablandırılıb, orta cavab müddəti isə 1 dəqiqə 42 saniyə təşkil edib. Mərkəzdə ”geriyə zəng” və ”zəng sifarişi” xidmətlərinin tətbiqi vətəndaşların müraciət imkanlarını daha da genişləndirib və onların Nazirliyə əlçatanlığını asanlaşdırıb.

Zahid Oruc Çağrı Mərkəzinin fəaliyyətini dövlət idarəçiliyində mühüm addım kimi qiymətləndirərək, görülən işlərin vətəndaş məmnuniyyətinin artırılmasına və dövlət-cəmiyyət münasibətlərində etimadın möhkəmləndirilməsinə xidmət etdiyini vurğulayıb.

Görüşün sonunda STM ilə Ədliyyə Nazirliyi arasında əməkdaşlığın davam etdirilməsinin və gələcəkdə daha da genişləndirilməsinin vacibliyi vurğulanıb.

# Qırğız nümayəndə heyəti ədliyyə sahəsində Azərbaycanın təcrübəsini öyrənmək üçün ölkəmizə səfər edib



**Qırğız Respublikasının ədliyyə nazirinin birinci müavini Zarılbek uulu Almazbekin rəhbərlik etdiyi nümayəndə heyəti ədliyyə sahəsində Azərbaycanın təcrübəsini öyrənmək məqsədilə ölkəmizə səfər edib.**

Səfər çərçivəsində qonaqlar Fəxri xiyabanda Ümummilli Lider Heydər Əliyevin məzarını və Şəhidlər xiyabanını ziyarət ediblər.

Nümayəndə heyəti Azərbaycan Respublikasının ədliyyə nazirinin müavini Abiddin Hüseynov ilə görüşüb. Notariat, qeydiyyat və reyestr baş idarəsində keçirilmiş görüşdə ”Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi ilə Qırğız Respublikasının Ədliyyə Nazirliyi arasında hüquqi sahədə qarşılıqlı fəaliyyət haqqında Saziş” çərçivəsində tərəflər arasında ədliyyə sahəsində əməkdaşlığın inkişafına dair fikir mübadiləsi aparılıb. Daha sonra ”Elektron notariat” sisteminin və ”Mobil notariat” tətbiqinin imkanları, ədliyyə sahəsində rəqəmsal transformasiya və elektron xidmətlər, eləcə də notariatın inkişafı barədə təqdimat və ətraflı məlumatlar təqdim edilib. Həmçinin ”Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinin notariat fəaliyyətində tətbiqi sahəsində Azərbaycanın uğurlu təcrübəsi barədə qonaqlara məlumat verilib.

Nazirliyin Probasiya xidmətində təşkil olunan görüşdə Qırğız Respublikasının nümayəndə heyətinə ölkəmizdə probasiya sahəsində son illərdə aparılan islahatlar, probasiya nəzarətində olan şəxslərə göstərilən sosial-psixoloji xidmətlər barədə ətraflı məlumat verilib, rəqəmsal fəaliyyətin həyata keçirilməsi, elektron nəzarət vasitələrinin tətbiqi ilə bağlı təqdimat edilib. Nümayəndə heyəti Rəqəmsal monitorinq mərkəzinin fəaliyyəti ilə də yaxından tanış olub. Görüşdə, həmçinin Qırğız Respublikası və Azərbaycanın probasiya qanunvericiliyi barədə fikir mübadiləsi aparılıb.





# Niderland Probasiya xidmətinin nümayəndələri Ədliyyə Nazirliyində olublar







**Niderland Krallığının Probasiya xidmətinin rəhbər şəxsləri Azərbaycana səfərləri çərçivəsində Ədliyyə Nazirliyində olublar.**

Xidmətin beynəlxalq bürosunun rəhbəri Yoxum Vildeman və probasiya siyasəti üzrə müşaviri Raymond Svennenhuisin ölkəmizə səfərinin məqsədi son illər Azərbaycanda probasiya sahəsində həyata keçirilən islahatlarla yaxından tanış olmaq, habelə ölkəmizdə probasiya fəaliyyətinin inkişafına dəstək verilməsindən ibarətdir.

Qonaqlar ədliyyə nazirinin müavini Mübariz Əhmədovla görüşüblər. Görüşdə tərəflər arasında ədliyyə, o cümlədən probasiya sahəsində əməkdaşlığın inkişafına dair fikir mübadiləsi aparılıb, son dövrlərdə ölkəmizdə probasiya sahəsində həyata keçirilən islahatlar, xidmətin yeni strukturu, cəzaların icrasına nəzarətin artırılması ilə yanaşı, məhkumların sosial adaptasiyası və reabilitasiyası istiqamətində görülən ardıcıl tədbirlər barədə qonaqlara məlumat verilib.

Daha sonra Probasiya xidmətində və Ədliyyə Akademiyasında niderlandlı ekspertlərlə görüşlər keçirilib, Bakı şəhər probasiya idarəsinin, Sumqayıt şəhər probasiya şöbəsinin əməkdaşları və probasiya könüllüləri, xidmətin əməkdaşlıq etdiyi ali təhsil müəssisələrinin nümayəndələri, Akademiyanın rəhbərliyi və təlimçilərinə Niderlandın probasiya təcrübəsi, bu sahədə keçirilən davamlı təlimlər, probasiya nəzarətində olan şəxslərə göstərilən sosial-psixoloji xidmətlər barədə təqdimatlar edilib, qarşılıqlı fikir mübadiləsi aparılıb, iştirakçıları maraqlandıran suallara aydınlıq gətirilib.

Görüşlərdə probasiya sahəsində gələcək beynəlxalq əməkdaşlıq imkanlarının, bir sıra Avropa ölkələri ilə bu sahədə qarşılıqlı təcrübə mübadiləsinin genişləndirilməsinin əhəmiyyəti vurğulanıb, habelə Nazirliyin Probasiya xidmətinin ötən il Avropa Probasiya Konfederasiyasına (CEP) üzv qəbul edilməsi, ölkəmizdə probasiya sahəsində əldə olunan nailiyyətlər, yeniliklər və innovativ dəyişikliklər, qlobal trendlərə uyğunlaşma, institusional və qanunvericilik tədbirləri ilə bağlı ətraflı müzakirələr aparılıb.

Qeyd edək ki, Niderlandın 200 illik tarixə malik olan Probasiya xidməti dünyanın nüfuzlu probasiya xidmətlərindən biri olmaqla yanaşı, Avropa və dünya miqyasında probasiya qurumlarının formalaşmasında və inkişafında yaxından iştirak edir.

# "E-qanun.ai" platformasının təqdimat mərasimi keçirilib










**Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə Ədliyyə Nazirliyinin birgə əməkdaşlığı çərçivəsində ərsəyə gəlmiş, Azərbaycanın hüquqi sənəd və qanunvericilik bazasında effektiv axtarış etməyə imkan verən "E-qanun.ai" platforması istifadəyə verilib. "Azərbaycan Respublikasının 2025 - 2028-ci illər üçün süni intellekt Strategiyası"nın icrası məqsədilə hazırlanmış bu süni intellekt məhsulu Strategiyanın 8.2.2-ci yarımbəndində qeyd olunan təbii dil emalı istiqamətlərinin gücləndirilməsi tədbirlərindən biridir.**

Təqdimat mərasimində ədliyyə nazirinin müavini Toğrul Hüseynov, rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Elmin Məmmədov, aidiyyəti qurumların nümayəndələri, hüquqşünaslar və media nümayəndələri iştirak ediblər.

"E-qanun.ai" Ədliyyə Nazirliyi və Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin birgə müəyyənləşdirdiyi texniki şərtlər əsasında AZCON Holding şirkətlərindən olan Milli Süni İntellekt Mərkəzi tərəfindən hazırlanıb. Sistem hüquqi aktların vahid elektron bazasına əsaslanan, süni intellekt dəstəkli, innovativ hüquqi axtarış platformasıdır.

İstifadəçilər üçün sürətli təhlil və dəqiq nəticə təqdim edən platforma hüquqi sahədə yaranan suallara operativ və etibarlı şəkildə cavab əldə edilməsini hədəfləyir.

Platformanın əsas məqsədi qanunların hər kəs üçün daha əlçatan və anlaşılan olmasını təmin etməkdir. Burada istifadəçilər hüquqi məlumatı mətnə, mənaya görə və ya hibrid formada axtara, onun süni intellekt əsaslı təhlilini görüntüləyə və əvvəlki axtarışlarının tarixçəsinə öz şəxsi hesablarında baxa bilərlər.

Platformanın bazasında normativ hüquqi aktlar, normativ xarakterli aktlar, qeyri-normativ hüquqi aktlar və rəsmi mətnlər mövcuddur.

Platformanın əsas üstünlüyü süni intellekt texnologiyası ilə axtarış nəticəsinin təhlili, anlaşılan, qısa xülasənin istifadəçiyə təqdim olunması, nəticələrin filtrlənməsi, qovluqlarda saxlanılmasıdır. Platforma həm də hüquqşünaslar və əlaqəli sahədə çalışan hər kəs üçün iş prosesini sadələşdirməyi hədəfləyir.

Növbəti mərhələdə platforma istifadəçilərinin, eləcə də hüquqşünasların ehtiyaclarına uyğun və onların işini daha da asanlaşdıracaq təkmil funksiyaların təqdim olunması nəzərdə tutulub.

# Gənc hüquqşünaslar üçün "Lex Camp II - Xankəndi" layihəsi keçirilir




**Sentyabrın 30-da "Ədliyyə Könüllüləri" İctimai Birliyinin Ədliyyə Nazirliyi, "ADA" Universiteti, Almaniyanın Martin Lüter adına Halle-Vittenberq Universiteti, Qarabağ Universiteti, Azərbaycan Respublikasının Gənclər Fondu və Azərbaycan Könüllü Təşkilatları İttifaqı ilə birgə "Konstitusiya və Suverenlik İli" çərçivəsində həyata keçirdiyi "Lex Camp II - Xankəndi" layihəsinin açılış mərasimi baş tutub.**

Qarabağ Universitetində keçirilən tədbirdə ədliyyə nazirinin müavini Abiddin Hüseynov, Qarabağ Universitetinin rektoru Şahin Bayramov, Azərbaycan Respublikasının Gənclər Fondunun icraçı direktoru vəzifəsini icra edən Yusif Vəliyev və Azərbaycan Könüllü Təşkilatları İttifaqının sədri Vüqar Əliyev çıxış ediblər. Onlar layihənin gənclərin hüquqi biliklərinin artırılması, peşəkar inkişaflarının dəstəklənməsi və hüququn aliliyinin təşviqi baxımından mühüm əhəmiyyət kəsb etdiyini vurğulayıblar.

Qeyd edək ki, 29 sentyabr - 4 oktyabr tarixlərində gənc hüquqşünaslar üçün Xankəndidə təşkil ediləcək "Lex Camp II - Xankəndi" layihəsi "Hüquq və Texnologiya: innovasiyaların tənzimlənməsi və tənzimlənmədə innovasiya" mövzusunu əhatə edəcək.

Layihədə iştirak etmək üçün "ADA" Universiteti, Bakı Dövlət Universiteti, Dövlət İdarəçilik Akademiyası, Naxçıvan Dövlət Universiteti və ölkənin digər universitetlərində, o cümlədən xarici ali təhsil müəssisələrinin müxtəlif pillələrində təhsil alan və məzun olmuş 300-ə yaxın namizəd müraciət edib. Müsahibə prosesi nəticələrinə əsasən 40 gənc hüquqşünas layihədə iştirak haqqı qazanıb.

Spiker qismində yerli və xarici professor heyəti və rəsmilərin iştirakı nəzərdə tutulan layihədə 6 gün ərzində hüquq və texnologiya münasibətləri ilə bağlı müxtəlif seminarlar, praktiki təlimlər, nümunələr üzərində iş və panel görüşlərin təşkili planlaşdırılır.

Layihə müddətində Xankəndi şəhəri ilə bərabər Şuşa, Ağdam və Laçın rayonlarına milli-mədəni irsin, tarixi abidələrin və turizm potensialının tanıdılması məqsədilə ekskursiyalar təşkil olunacaq, bağlanış mərasimi isə Xankəndi şəhərində təşkil ediləcək.

# Ədliyyə Nazirliyi və QHT-lərə Dövlət Dəstəyi Agentliyinin birgə bəyanatı

**Bir sıra QHT-lərin qanunla qadağan olunan fəaliyyətə yol verərək, ayrı-ayrı şəxsləri saxta orden və medallarla təltif etməsi barədə informasiyalar yayılmaqdadır.**

"Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" 1992-ci il tarixli Azərbaycan Respublikası Qanununa 2010-cu ildə əlavə edilmiş 3-cü bəndə əsasən, orden və medal - vətəndaşlara xüsusi xidmətlərə görə dövlət tərəfindən verilən dövlət təltifidir. Bu Qanundan başqa digər normativ hüquqi aktlarda orden və medallar (o cümlədən "orden" və ya "medal" ifadəsindən hər hansı mənada istifadə edilməklə) təltif növü kimi təsis oluna bilməz.

Bildiririk ki, bəzi QHT-lərin orden və medallar təsis etməsi ictimai etimadı sarsıdır, əhalinin aldadılmasına səbəb olur və ciddi hüquqi məsuliyyət yaradır.

# Ədliyyə Nazirliyi Avropa Şurasının ədliyyə nazirlərinin konfransında təmsil olunub

**18-19 sentyabr tarixlərində Maltanın Valetta şəhərində "Sərhədlərarası əməkdaşlıq və qarşılıqlı yardım: transmilli cinayətlərə qarşı mübarizə üzrə əməkdaşlığın gücləndirilməsi" mövzusunda Avropa Şurasının ədliyyə nazirlərinin konfransı keçirilib. Konfransda Avropa Şurasının səlahiyyətli qurumlarının rəhbər heyətləri, üzv dövlətlərinin ədliyyə nazirləri, səfirlər və digər rəhbər şəxslər iştirak ediblər.**



Konfransda ölkəmizi təmsil edən ədliyyə nazirinin müşaviri Seyfəlpaşa Əliyev çıxış edərək, cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım sahəsində Nazirliyin fəaliyyəti barədə ətraflı məlumat verib, bu istiqamətdə rəqəmsal alətlərin tətbiqi və əlaqələrin genişləndirilməsi üzrə müsbət təcrübələrimiz barədə iştirakçıları məlumatlandırıb.

Konfrans çərçivəsində "Cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım haqqında" Avropa Konvensiyanın 3 saylı əlavə protokolu ("Valetta" protokolu) imzaya açıq elan edilib. Bununla bağlı müvafiq protokol layihəsini hazırlayan Avropa Şurası Cinayət məsələlərində əməkdaşlığa dair Avropa konvensiyalarının icrası üzrə Ekspertlər Komitəsinin (PC-OC) sədri, Ədliyyə Nazirliyinin Beynəlxalq əməkdaşlıq baş idarəsinin rəisi Adil Əbilov müvafiq Protokolun hazırlanması zərurəti, onun fəaliyyətin təkmilləşdirilməsindəki rolu barədə məruzə edib.

Sonda hüquqi yardım sahəsində səmərəliliyin artırılması üzrə tədbirləri nəzərdə tutan Yekun Bəyannamə qəbul edilib.

# Ədliyyə Nazirliyi beynəlxalq konvensiyalar üzrə təlim təşkil edib

**29 sentyabr - 1 oktyabr tarixlərində Ədliyyə Nazirliyi və Beynəlxalq Xüsusi Hüquq üzrə Haaqa Konfransının (BXHHK) Katibliyinin birgə təşkilatçılığı ilə təlim keçirilib.**





Təlim Azərbaycan Respublikasının 2023-cü ildə qoşulduğu 1965-ci il tarixli "Mülki və ya ticarət işləri üzrə məhkəmə və qeyri-məhkəmə sənədlərinin xaricdə təqdim edilməsi haqqında" Konvensiya və 2024-cü ildə qoşulduğu "Uşaqlara görə alimentin tutulması və ailənin saxlanılmasının digər formalarının beynəlxalq qaydası haqqında" 2007-ci il tarixli Konvensiyanın tətbiqi ilə bağlı praktik məsələlərin izahı məqsədilə təşkil olunub.

Təlimdə hakimlər, vəkillər, notariuslar, icra məmurları, eləcə də adıçəkilən konvensiyalar üzrə mərkəzi orqan funksiyasını həyata keçirən Ədliyyə Nazirliyinin nümayəndələri iştirak ediblər.

BXHHK-nın peşəkar ekspertləri tərəfindən aparılan təlimə dinləyici qismində Qazaxıstan Respublikasından gəlmiş nümayəndə heyəti də qatılıb.

Proqram çərçivəsində iştirakçılar beynəlxalq konvensiyaların tətbiqi üzrə nəzəri biliklər əldə etməklə yanaşı, praktiki məşğələlərdə də iştirak ediblər.

Üç gün davam edən təlimdə BXHHK-nın fəaliyyəti, İş Proqramı ilə tanışlıq olub, alimentin tutulması ilə bağlı qərarların sorğu edilən dövlətlərdə icrası və tanınması məsələləri müzakirə edilib. Həmçinin bu sahədə IT-nin tətbiqindən danışılıb, məhkəmə sənədlərinin təqdim olunması üzrə təqdimat keçirilib, göstərilən sahələr üzrə praktiki kazuslar həll edilib.

Təlimdən sonra Ədliyyə Nazirliyində Qazaxıstan Respublikasından gəlmiş nümayəndə heyəti ilə görüş keçirilib, Konvensiyanın tətbiqi və ikitərəfli əməkdaşlıq məsələləri müzakirə edilib.

# Azərbaycan ədəbi dilinin düzgün tətbiq olunmasına dair tədbir keçirilib





**17 sentyabr 2025-ci il tarixində Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və Azərbaycan Respublikası Audiovizual Şurasının birgə təşkilatçılığı ilə Azərbaycan ədəbi dilinin düzgün tətbiq olunması və dövlət idarəçiliyində dil mədəniyyətinin gücləndirilməsi məqsədilə maarifləndirici tədbir keçirilib.**

Ədliyyə Akademiyasında keçirilən tədbirdə Azərbaycan dilinin qorunması, qloballaşma dövründə onun istifadəsinin daha da genişləndirilməsi, ədəbi dil normalarının ictimaiyyətlə ünsiyyətdə düzgün tətbiqi, eləcə də peşəkar üslubun formalaşdırılması kimi mövzular müzakirə olunub.

"Azərbaycan Televiziya və Radio Verilişləri" QSC-nin sədr müavini, Azərbaycanın əməkdar artisti, telejurnalist, rejissor Rafiq Həşimov mövzu ilə bağlı çıxış edərək dövlət idarəçiliyində Azərbaycan ədəbi dilinin düzgün tətbiqinin vacibliyini vurğulayıb. O bildirib ki, peşəkar ünsiyyətin səlis və anlaşıqlı qurulması, həm vətəndaşlarla kommunikasiya, həm də ictimai rəyin formalaşması baxımından mühüm əhəmiyyət daşıyır. Bu istiqamətdə keçirilən maarifləndirmə tədbirləri və treninqlər əməkdaşların dil biliklərinin təkmilləşdirilməsinə, üslub pozuntularının qarşısının alınmasına və Azərbaycan ədəbi dil normalarının qorunmasına xidmət edir.

Ədliyyə Akademiyasının prorektoru Elçin Xələfov, Audiovizual Şuranın mətbuat katibi Taleh Quliyev və Ədliyyə Nazirliyinin Mətbuat xidmətinin rəisi Ləman Hüseynzadə öz çıxışlarında Azərbaycan ədəbi dilinin normalarına ciddi surətdə əməl edilməsinin vacibliyini qeyd ediblər.

İnteraktiv müzakirələr zamanı iştirakçıların sualları cavablandırılıb, onlara ədəbi dil normalarının düzgün tətbiqi və nitq mədəniyyətinin qorunması barədə məlumat verilib. Tədbirdə, həmçinin İqtisadiyyat Nazirliyinin, Elm və Təhsil Nazirliyinin nümayəndələri də iştirak ediblər.

## Ədliyyə Nazirliyi yanında İctimai şura üzvləri bələdiyyə və probasiya fəaliyyəti ilə tanış olublar







**Ədliyyə Nazirliyi yanında İctimai şuranın üzvləri Nazirliyin Bələdiyyələrlə iş baş idarəsində və Probasiya xidmətində olublar.**

Bələdiyyələrlə iş baş idarəsində keçirilən görüşdə idarənin rəisi Elmin Həsənov sonuncu seçkilərdən sonra formalaşmış bələdiyyələrin fəaliyyətinin qanunauyğun təşkilinə metodoloji köməklik göstərilməsi, onların hüquqi maarifləndirilməsi, inzibati nəzarətin həyata keçirilməsi ilə bağlı Ədliyyə Nazirliyi tərəfindən görülən tədbirlər, bu sahədə rəqəmsal texnologiyaların tətbiqi, o cümlədən "Bələdiyyələrlə iş" informasiya sisteminin fəaliyyəti barədə məlumat verib.

Tədbirdə bələdiyyələrlə yerli əhali arasında sıx təmasların, onların fəaliyyəti barədə vətəndaşların mütəmadi məlumatlandırılmasının əhəmiyyəti qeyd olunub, təkliflər səsləndirilib.

Probasiya xidmətində keçirilən görüşdə isə xidmət rəisi Vüqar Ağayev probasiya sahəsində müasir çağırışlara uyğun aparılan islahatlar, qanunvericiliyin təkmilləşdirilməsi, probasiya nəzarətində olan şəxslərin sosial adaptasiyası və reabilitasiyası, onlara göstərilən sosial-psixoloji xidmətlər, ali təhsil müəssisələri, dövlət qurumları və vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlıq, eləcə də xidmətin səmərəli beynəlxalq əlaqələri barədə danışıb. Şura üzvləri, həmçinin Rəqəmsal monitorinq mərkəzinin fəaliyyəti ilə yaxından tanış olublar.

Görüşlərdə İctimai şuranın üzvlərini maraqlandıran suallar ətrafında faydalı fikir mübadiləsi aparılıb, son dövrlərdə Nazirlik tərəfindən aparılan islahatların və tətbiq olunan yeniliklərin ədliyyə orqanlarının fəaliyyətinin müasirləşdirilməsinə, şəffaflığa və vətəndaş məmnunluğuna xidmət etdiyi vurğulanıb.

## Ədliyyə Nazirliyi daşınmaz əmlakın qiymətləndirilməsi üçün süni intellekt əsaslı rəqəmsal xidmət istifadəyə verib

**Ədliyyə Nazirliyi tərəfindən həyata keçirilən islahatlar çərçivəsində proseslərin optimallaşdırılması və rəqəmsallaşdırılması istiqamətində növbəti addım kimi daşınmaz əmlakın bazar dəyərini müəyyən etməyə imkan verən süni intellekt dəstəkli yeni əmlak qiymətləndirmə xidməti istifadəyə verilib.**

Bu rəqəmsal xidmət daşınmaz əmlakın alqı-satqısı zamanı həm vətəndaşların, həm də notariusların istifadəsi üçün nəzərdə tutulub. Belə ki, yeni xidmət vasitəsilə alqı-satqı zamanı istər vətəndaşlar, istərsə də notariuslar mənzil, torpaq sahəsi, yaşayış və qeyri-yaşayış kateqoriyaları üzrə daşınmaz əmlakın təxmini bazar qiymətini hesablaya biləcəklər.

Əmlakın əsas xüsusiyyətlərinin daxil edilməsi əsasında sistem qiymətləndirmə aparır və daim




yenilənən real bazar qiymətlərinə yaxın nəticə hesablayır. Bu isə vətəndaşlara və notariuslara vaxt itirmədən daşınmaz əmlakın cari vəziyyətinə uyğun ehtimal olunan qiymət ilə tanış olmağa şərait yaradır.

İstifadə olunan məlumatlar ilk növbədə Elektron Notariat İnformasiya Sisteminə əsaslanır və əvvəlki illərdə həyata keçirilmiş əmlak alqı-satqısı əməliyyatlarını əhatə edir. Həmçinin gündəlik yenilənən bazar qiymətləri nəzərə alınmaqla, daşınmaz əmlak alqı-satqısı bazarından və açıq mənbələrdə dərc olunan elanlardan əldə edilmiş məlumatlar emal olunaraq süni intellekt modelləri vasitəsilə nəticələrə inteqrasiya edilir. Sonda istifadəçiyə əmlakın ehtimal olunan qiyməti barədə məlumat verilir.

Xidmətdən yararlanmaq üçün www.notariat.az ünvanına daxil olaraq "Əmlak qiymətləndirilməsi" səhifəsinə keçid etmək kifayətdir.

Yeni xidmətin istifadəyə verilməsi daşınmaz əmlak bazarında şəffaflığın artırılmasına, əmlak alqı-satqısı proseslərinin daha əlçatan və rahat şəkildə həyata keçirilməsinə, həmçinin müasir rəqəmsal texnologiyaların tətbiqi vasitəsilə ölkədə innovativ həllərin inkişafına mühüm töhfə verəcək.

## Ədliyyə Nazirliyinin ekspertləri türkiyəli həmkarları ilə ixtisasartırma təlimində iştirak ediblər

**16-17 sentyabr tarixlərində Türkiyə Respublikasının Daxili İşlər Nazirliyinin ekspertləri Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzinin təşkil etdiyi ixtisasartıma təlimində iştirak ediblər.**




"Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi ilə Türkiyə Respublikasının Daxili İşlər Nazirliyi arasında məhkəmə ekspertizası sahəsində əməkdaşlıq haqqında Saziş" çərçivəsində təşkil edilən təlim 2025-ci il üzrə fəaliyyət planında nəzərdə tutulan "Yanğın və texnoloji partlayış hadisələrinin yerində tədqiqi" mövzusunu əhatə edib.

Təlimdə yanğının mənbə zonasının, qəsdən törədilmiş yanğınların özünəməxsus əlamətlərinin, qəza rejimlərinin elektrotexnik qurğularda yanğına səbəb olmasının müəyyən edilməsi üzrə metodik məsələlər izah edilib və müxtəlif xarakterli yanğın və partlayış hadisələri yerində praktik məşğələlər keçirilib.

Türkiyə Respublikası Daxili İşlər Nazirliyinin müvafiq qurumlarının (Jandarma Genel Komutanlığı Kriminal Daire Başkanlığının və Emniyet Genel Müdürlüyü Kriminal Daire Başkanlığının), həmçinin Naxçıvan Məhkəmə Ekspertizası Mərkəzinin kimyaçı ekspertləri də təlimə qatılıblar.

İştirakçılar Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzinin laboratoriyalarında iş prosesi, tədqiqatda istifadə olunan cihaz və avadanlıqlarla tanış edilib və sertifikatla təltif olunublar.

## Türkiyə və Azərbaycanın kimyaçı ekspertləri "SOCAR Polymer" MMC-nin laboratoriyalarında təlim keçiblər

**18-19 sentyabr tarixlərində Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və Türkiyə Respublikasının Daxili İşlər Nazirliyinin kimyaçı ekspertləri ixtisasartırma təlimində olublar.**



Tədbir neft-kimya və kimya sənayesi sahəsində yeniliklərin və qabaqcıl texnologiyaların tətbiqi sahəsində geniş təcrübəsi ilə tanınan "SOCAR Polymer" MMC-nin laboratoriyalarında təşkil olunub.

"Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi ilə Türkiyə Respublikasının Daxili İşlər Nazirliyi arasında məhkəmə ekspertizası sahəsində əməkdaşlıq haqqında Saziş" çərçivəsində təşkil edilən, 2025-ci il üzrə fəaliyyət planında nəzərdə tutulan təlimin mövzusu "Polimer materialların diaqnostik və identifikasiya tədqiqatları" olub.

Təlimdə polimer materialların və onlardan hazırlanan məmulatların tədqiqatının nəzəri və metodik əsasları, fiziki və mexaniki xüsusiyyətlərinin tədqiqat üsulları, fiziki və kimyəvi xassələrini müəyyən etmək üçün aparılan laboratoriya analizləri, analitik və spektral tədqiqat metodları izah edilib və praktik məşğələlər keçirilib.

Təlimə Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzinin, Naxçıvan Məhkəmə Ekspertizası Mərkəzinin və Türkiyə Respublikası Daxili İşlər Nazirliyinin müvafiq qurumlarının (Jandarma Genel Komutanlığı Kriminal Daire Başkanlığının və Emniyet Genel Müdürlüyü Kriminal Daire Başkanlığı) kimyaçı ekspertləri qatılıblar.

Sonda iştirakçılar sertifikatla təltif ediliblər.

# QEYRİ-KOMMERSİYA TƏŞKİLATLARININ REYESTR MƏLUMATI

### "Gənc İnsan Hüquq Müdafiəçiləri" ictimai birliyi

**Qeydiyyat tarixi:** 29.12.2004-cü il
**Qeydiyyat N-si:** 1104-Q3-1666
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Rəhmanova Süleymanova Qərənfil Musa qızı olmuşdur
**Dəyişiklik:** 01.09.2025-ci il tarixdə qeydiyyata alınmışdır

### "Azərbaycan Həmkarlar İttifaqları İdman Təşkilatları Assosiasiyası" ictimai birliyi

**Qeydiyyat tarixi:** 13.10.1993-cü il
**Qeydiyyat N-si:** 440
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi İsmayılov Emin Həsən oğlu olmuşdur
**Dəyişiklik:** 02.09.2025-ci il tarixdə qeydiyyata alınmışdır

### "Gənclər azad sahibkarlıq fəaliyyətində" ictimai birliyi

**Qeydiyyat tarixi:** 30.05.2008-ci il
**Qeydiyyat N-si:** 1108-Q21-2529
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Məmmədli Kəmalə Ramin qızı olmuşdur
**Dəyişiklik:** 04.09.2025-ci il tarixdə qeydiyyata alınmışdır

### Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyinin Aqrar Təlim Mərkəzi

**Qeydiyyat tarixi:** 16.11.2021-ci il
**Qeydiyyat N-si:** 1121-QK11-0083
Azərbaycan Respublikası kənd təsərrüfatı nazirinin əmri və digər sənədlərə əsasən qanuni təmsilçisi Mehdizadə Rəşad Zəhmət oğlu olmuşdur
**Dəyişiklik:** 04.09.2025-ci il tarixdə qeydiyyata alınmışdır

### "Demokratik Azərbaycan Naminə" gənclərin ictimai birliyi

**Qeydiyyat tarixi:** 15.03.2006-cı il
**Qeydiyyat N-si:** 1106-Q8-2012
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Behbud Elməddin Mahmud oğlu olmuşdur
**Dəyişiklik:** 04.09.2025-ci il tarixdə qeydiyyata alınmışdır

### "Əqli Mülkiyyətçilərə Kömək" ictimai birliyi

**Qeydiyyat tarixi:** 24.12.2008-ci il
**Qeydiyyat N-si:** 1108-Q24-2648
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Qafarov Əfqan Məhəmməd oğlu olmuşdur
**Dəyişiklik:** 04.09.2025-ci il tarixdə qeydiyyata alınmışdır

### "Respublika Şəhid Ailələrinin Müdafiə Cəmiyyəti" ictimai birliyi

**Qeydiyyat tarixi:** 30.03.1994-cü il
**Qeydiyyat N-si:** 509
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Əliyev Camal Fərzəli oğlu olmuşdur
**Dəyişiklik:** 04.09.2025-ci il tarixdə qeydiyyata alınmışdır

### "İşgəncələrə Qarşı Azərbaycan Komitəsi" ictimai birliyi

**Qeydiyyat tarixi:** 30.06.2005-ci il
**Qeydiyyat N-si:** 1105-Q4-1785
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Hüseynov Tural Yadigar oğlu olmuşdur
**Dəyişiklik:** 05.09.2025-ci il tarixdə qeydiyyata alınmışdır

### "Gələcək Naminə" vətəndaş cəmiyyətinin inkişafına dəstək ictimai birliyi

**Qeydiyyat tarixi:** 24.09.2010-cu il
**Qeydiyyat N-si:** 1110-Q33-2885
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi İsaqov Tural Akif oğlu olmuşdur
**Dəyişiklik:** 05.09.2025-ci il tarixdə qeydiyyata alınmışdır

### "Potensial" Sumqayıt mütəxəssislər birliyi

**Qeydiyyat tarixi:** 27.05.2000-ci il
**Qeydiyyat N-si:** 1304
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Fərzəliyev Sahib Abduləli oğlu olmuşdur
**Dəyişiklik:** 05.09.2025-ci il tarixdə qeydiyyata alınmışdır

### Sosial-strateji tədqiqatlar və analitik araşdırmalar ictimai birliyi

**Qeydiyyat tarixi:** 16.08.2000-ci il
**Qeydiyyat N-si:** 1316
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Hüseynli İlqar Qəşəm oğlu olmuşdur
**Dəyişiklik:** 05.09.2025-ci il tarixdə qeydiyyata alınmışdır

### "Yasamal-67" mənzil mülkiyyətçilərinin müştərək cəmiyyəti

**Qeydiyyat tarixi:** 31.05.2023-cü il
**Qeydiyyat N-si:** 1123-MM10-0289
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Məmmədov Müşfiq Zakir oğlu olmuşdur
**Dəyişiklik:** 05.09.2025-ci il tarixdə qeydiyyata alınmışdır

### "Kənd Qadınlarının Problemlərinin Həllinə Dayaq" ictimai birliyi

**Qeydiyyat tarixi:** 28.09.2005-ci il
**Qeydiyyat N-si:** 1105-Q5-1877
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Cəfərova Kəklik Yunus qızı olmuşdur
**Dəyişiklik:** 08.09.2025-ci il tarixdə qeydiyyata alınmışdır

### Azərbaycan Respublikası Deflimpiya Komitəsi

**Qeydiyyat tarixi:** 13.10.2023-cü il
**Qeydiyyat N-si:** 1123-Q83-4223
Birliyin ümumi yığıncağın qərarı və digər sənədlərə əsasən hazırkı məqsədi: eşitmə qabiliyyəti məhdud olan şəxslər arasında idmanın ölkə miqyasında inkişaf etdirilməsi, onların cəmiyyətə idman vasitəsilə inteqrasiya etməsinə, həmçinin bu sahədə respublika və ya beynəlxalq miqyaslı idman yarışlarının keçirilməsinə, yığma komandaların formalaşdırılması və beynəlxalq yarışlara hazırlanmasına dəstək göstərmək, qanuni təmsilçisi Qurbanlı Əli Ramin oğlu olmuşdur
**Dəyişiklik:** 08.09.2025-ci il tarixdə qeydiyyata alınmışdır

### "Vətəndaş Cəmiyyətində Debat" ictimai birliyi

**Qeydiyyat tarixi:** 31.01.2005-ci il
**Qeydiyyat N-si:** 1105-Q3-1689
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Hüseynova Aydan Natiq qızı olmuşdur
**Dəyişiklik:** 09.09.2025-ci il tarixdə qeydiyyata alınmışdır

### "Damla" aztəminatlı ailələrə qayğı ictimai birliyi

**Qeydiyyat tarixi:** 27.05.2010-cu il
**Qeydiyyat N-si:** 1110-Q32-2860
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Abdullayeva Nigar Kamil qızı olmuşdur
**Dəyişiklik:** 10.09.2025-ci il tarixdə qeydiyyata alınmışdır

### "Azərbaycan Sahibkar Qadınlar Forumu" ictimai birliyi

**Qeydiyyat tarixi:** 29.12.2011-ci il
**Qeydiyyat N-si:** 1111-Q38-3009
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Quluzadə Gülarə Həsənqulu qızı olmuşdur
**Dəyişiklik:** 10.09.2025-ci il tarixdə qeydiyyata alınmışdır

### "Dialoq və İnkişaf Naminə" ictimai birliyi

**Qeydiyyat tarixi:** 15.10.2021-ci il
**Qeydiyyat N-si:** 1121-Q77-3960
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Bayramov Çingiz İbrahim oğlu olmuşdur
**Dəyişiklik:** 10.09.2025-ci il tarixdə qeydiyyata alınmışdır

### "Qadın və Müasir Dünya" Sosial Xeyriyyə Mərkəzi ictimai birliyi

**Qeydiyyat tarixi:** 02.07.1999-cu il
**Qeydiyyat N-si:** 1150
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Şirəliyeva Südabə Zülfəli qızı olmuşdur
**Dəyişiklik:** 10.09.2025-ci il tarixdə qeydiyyata alınmışdır

### "Regional Araşdırmalar" ictimai birliyi

**Qeydiyyat tarixi:** 27.07.2017-ci il
**Qeydiyyat N-si:** 1117-Q59-3506
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Hüseynov Rusif Şakir oğlu olmuşdur
**Dəyişiklik:** 10.09.2025-ci il tarixdə qeydiyyata alınmışdır

### "Erasmus Tələbə Şəbəkəsi - Azərbaycan" ictimai birliyi

**Qeydiyyat tarixi:** 31.10.2019-cu il
**Qeydiyyat N-si:** 1119-Q69-3749
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən hazırkı adı: "Gənclərin Beynəlxalq Dialoq Platforması" ictimai birliyi, qanuni təmsilçisi Tağıyev Əli Feyzulla oğlu olmuşdur
**Dəyişiklik:** 11.09.2025-ci il tarixdə qeydiyyata alınmışdır

### "Ticarət şəbəkələrinin inkişafı" ictimai birliyi

**Qeydiyyat tarixi:** 01.05.2020-ci il
**Qeydiyyat N-si:** 1120-Q73-3824
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən hazırkı məqsədi: şəbəkə ticarətinin inkişafına töhfə vermək, qanuni təmsilçisi İmanov Araz Nazim oğlu olmuşdur
**Dəyişiklik:** 12.09.2025-ci il tarixdə qeydiyyata alınmışdır

### "Lütfiyar İmanov" musiqili teatr ictimai birliyi

**Qeydiyyat tarixi:** 30.08.1996-cı il
**Qeydiyyat N-si:** 867
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi İmanov Rafiq Lütfiyar oğlu olmuşdur
**Dəyişiklik:** 12.09.2025-ci il tarixdə qeydiyyata alınmışdır

### "İnkişaf" sosial və iqtisadi araşdırmalar ictimai birliyi

**Qeydiyyat tarixi:** 20.04.2007-ci il
**Qeydiyyat N-si:** 1107-Q17-2359
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə

əsasən qanuni təmsilçisi Quluzadə Gülnarə Bünyamin qızı olmuşdur
**Dəyişiklik:** 12.09.2025-ci il tarixdə qeydiyyata alınmışdır

### "Müasir Qadın və Cəmiyyət" ictimai birliyi

**Qeydiyyat tarixi:** 20.11.2010-cu il
**Qeydiyyat N-si:** 1110-Q34-2901
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Kazımova Fidan Niyət qızı olmuşdur
**Dəyişiklik:** 16.09.2025-ci il tarixdə qeydiyyata alınmışdır

### "Dünya" Ana və Uşaqlar ictimai birliyi

**Qeydiyyat tarixi:** 28.09.2005-ci il
**Qeydiyyat N-si:** 1105-Q5-1907
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Əliyeva Dünyaxanım Yunus qızı olmuşdur
**Dəyişiklik:** 16.09.2025-ci il tarixdə qeydiyyata alınmışdır

### "Gənclərin Həmrəyliyi" ictimai birliyi

**Qeydiyyat tarixi:** 29.06.2009-cu il
**Qeydiyyat N-si:** 1109-Q28-2754
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Bağıyev Mustafa Adil oğlu olmuşdur
**Dəyişiklik:** 16.09.2025-ci il tarixdə qeydiyyata alınmışdır

### "Media və Mülki Cəmiyyət" ictimai birliyi

**Qeydiyyat tarixi:** 28.12.2005-ci il
**Qeydiyyat N-si:**1105-Q7-1968
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Əhmədov Xanoğlan Əlüseyn oğlu olmuşdur
**Dəyişiklik:** 16.09.2025-ci il tarixdə qeydiyyata alınmışdır

### "Bələdiyyələrin İnkişafına Yardım" ictimai birliyi

**Qeydiyyat tarixi:** 25.06.2011-ci il
**Qeydiyyat N-si:** 1111-Q36-2967
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Orduxanov Niyaməddin Orduxan oğlu olmuşdur
**Dəyişiklik:** 16.09.2025-ci il tarixdə qeydiyyata alınmışdır

### "Eko-Aləm" ictimai birliyi

**Qeydiyyat tarixi:** 26.05.2006-cı il
**Qeydiyyat N-si:** 1106-Q11-2111
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Yüzbaşeva Sevil İsmayıl qızı olmuşdur
**Dəyişiklik:** 16.09.2025-ci il tarixdə qeydiyyata alınmışdır

### "Azərbaycan Kartoqrafları" ictimai birliyi

**Qeydiyyat tarixi:** 13.10.2023-cü il
**Qeydiyyat N-si:** 1123-Q83-4245
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Bayramov Muqabil Tofiq oğlu olmuşdur
**Dəyişiklik:** 17.09.2025-ci il tarixdə qeydiyyata alınmışdır

### "Tərəqqi" Sosial İnkişaf ictimai birliyi

**Qeydiyyat tarixi:** 27.04.1999-cu il
**Qeydiyyat N-si:** 1114
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Dadaşov Elşən Telman oğlu olmuşdur
**Dəyişiklik:** 17.09.2025-ci il tarixdə qeydiyyata alınmışdır

### "Beynəlxalq İnsan Hüquqları Cəmiyyəti Azərbaycan Milli Bölməsi" ictimai birliyi Qeydiyyat tarixi: 03.02.1993-cü il

**Qeydiyyat N-si:** 307
Birliyin ümumi yığıncağın qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Bənənyarlı Səadət İzzət qızı olmuşdur
**Dəyişiklik:** 18.09.2025-ci il tarixdə qeydiyyata alınmışdır

### "Milli Düşüncə və İnkişaf" ictimai birliyi

**Qeydiyyat tarixi:** 27.12.2023-cü il
**Qeydiyyat N-si:** 1123-Q83-4258
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Talışxanlı Əlövsət Sayad oğlu olmuşdur
**Dəyişiklik:** 19.09.2025-ci il tarixdə qeydiyyata alınmışdır

### "Evsiz Heyvanların Müdafiəsi" ictimai birliyi

**Qeydiyyat tarixi:** 03.07.2007-ci il
**Qeydiyyat N-si:** 1107-Q18-2408
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Əli-zadə Leyla Tofik qızı olmuşdur
**Dəyişiklik:** 19.09.2025-ci il tarixdə qeydiyyata alınmışdır

### "Tərəqqi" regionların sosial inkişafına yardım ictimai birliyi

**Qeydiyyat tarixi:** 29.12.2006-cı il
**Qeydiyyat N-si:** 1106-Q15-2284
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Sadıqov Bəhram Əli oğlu olmuşdur
**Dəyişiklik:** 19.09.2025-ci il tarixdə qeydiyyata alınmışdır

### "Sosial-İqtisadi İnkişaf Uğrunda" ictimai birliyi

**Qeydiyyat tarixi:** 28.12.2005-ci il
**Qeydiyyat N-si:** 1105-Q7-1965
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Məmmədova Sevda Daşdəmir qızı olmuşdur
**Dəyişiklik:** 22.09.2025-ci il tarixdə qeydiyyata alınmışdır

### "Qadın Təşəbbüsü və Sosial Problemlərin Həllinə Yardım" ictimai birliyi

**Qeydiyyat tarixi:** 16.04.2005-ci il
**Qeydiyyat N-si:** 1105-Q4-1729
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Mustafayeva Zenfira Bəddin qızı olmuşdur
**Dəyişiklik:** 23.09.2025-ci il tarixdə qeydiyyata alınmışdır

### "Qayıdış" ictimai birliyi

**Qeydiyyat tarixi:** 29.03.2003-cü il
**Qeydiyyat N-si:** 1103-Q1-1428
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Rəhimov Şamxal Arzu oğlu olmuşdur
**Dəyişiklik:** 23.09.2025-ci il tarixdə qeydiyyata alınmışdır

### "Qloballaşan Dünyaya İnteqrasiya" ictimai birliyi

**Qeydiyyat tarixi:** 30.03.2008-ci il
**Qeydiyyat N-si:** 1108-Q21-2511
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Ağayeva Selcan İlkin qızı olmuşdur
**Dəyişiklik:** 23.09.2025-ci il tarixdə qeydiyyata alınmışdır

### "İsmayıllı Yazarları" ədəbi ictimai birliyi

**Qeydiyyat tarixi:** 27.08.2014-cü il
**Qeydiyyat N-si:** 1114-Q50-3294
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçi Soltanov Şahməmməd Nurulla oğlu olmuşdur
**Dəyişiklik:** 23.09.2025-ci il tarixdə qeydiyyata alınmışdır

### "Qadın Hüquqlarının Himayə Mərkəzi" ictimai birliyi

**Qeydiyyat tarixi:** 28.02.2007-ci il
**Qeydiyyat N-si:** 1107-Q17-2335
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçi Məmmədova Həqiqət Əlihüseyn qızı olmuşdur
**Dəyişiklik:** 23.09.2025-ci il tarixdə qeydiyyata alınmışdır

### "Ailələrin Maarifləndirilməsi" ictimai birliyi

**Qeydiyyat tarixi:** 20.08.2009-cu il
**Qeydiyyat N-si:** 1109-Q28-2767
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Məmmədova Xəyalə Arif qızı olmuşdur
**Dəyişiklik:** 26.09.2025-ci il tarixdə qeydiyyata alınmışdır

### "Azərbaycan Vikimedia Könüllüləri" ictimai birliyi

**Qeydiyyat tarixi:** 15.02.2017-ci il
**Qeydiyyat N-si:** 1117-Q58-3475
Birliyin ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən qanuni təmsilçisi Atalıyev Elgün Yavər oğlu olmuşdur
**Dəyişiklik:** 26.09.2025-ci il tarixdə qeydə alınıb

### "Futbolun İnkişaf Fondu"

**Qeydiyyat tarixi:** 31.10.2016-cı il
**Qeydiyyat N-si:** 1116-Q56-3423
Himayəçilər şurasının qərarları və digər sənədlərə əsasən qanuni təmsilçisi Piriyev Tural Fərman oğlu olmuşdur
**Dəyişiklik:** 26.09.2025-ci il tarixdə qeydiyyata alınmışdır

### ELAN

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Kollegiyasının 01.03.2016-cı il tarixli Qərarı ilə 1116-QK6-0023 nömrə ilə dövlət qeydiyyatına alınmış Azərbaycan Milli Elmlər Akademiyasının Qafqazşünaslıq İnstitutu ləğv olunduğunu elan edir.
Kreditorlardan xahiş olunur ki, birinci elan dərc olunduqdan sonra 60 gün ərzində quruma olan tələblərini aşağıda göstərilən ünvana bildirsinlər:
Bakı şəhəri, İstiqlaliyyət küçəsi 30.

***

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Kollegiyasının 20.11.2020-ci il tarixli Qərarı ilə 1120-Q74-3866 nömrə ilə dövlət qeydiyyatına alınmış "Azərbaycan Milli Qeyri-Hökumət Təşkilatları Forumu Könüllüləri" İctimai Birliyi ləğv olunduğunu elan edir.
Kreditorlardan xahiş olunur ki, bu elan dərc olunduqdan sonra 60 gün ərzində quruma olan tələblərini aşağıda göstərilən ünvana bildirsinlər:
Bakı şəhəri, Mətbuat prospekti, 24

**Təsisçi:** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi
**Buraxılışa məsul:** Rasim Həsənov
**Ünvan:** Bakı-AZ 1073. İnşaatçılar pr-ti, 1. Tel: 537-06-40
Qəzetdə qeyri-kommersiya hüquqi şəxslərin dövlət qeydiyyatı haqqında məlumatlar dərc olunur. Qəzet ayda bir dəfə çıxır.
Reyestr N 769